«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 30 oktyabr (çərşənbə günü) tarixli XXVI nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

AZƏRBAYCAN

Çaharşənbə, 23 məhərrəmülhəram sənə 1337. 30 təşrini-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə: Bakı, Kolyubakinskaya küçədə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 6-91.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 35, başqa şəhərlərə 42 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

İkinci Azərbaycan firqəsi [diviziyası] taborlarında istixdam olunmaq [xidmətə qəbul edilmək] üzrə türkcə bilən altı feldşerə lüzum vardır. Arzu edənlər vəsiqələri ilə bərabər, hər gün saat ikidən saat altı sonraya qədər Rotşildin evində firqə sərtəbabətinə [baş həkimliyinə] müraciət etsinlər.

EV KOMİTƏLƏRİNƏ ELANİ-RƏSMİ

Bununla şəxsi vərəqələr xüsusunda bütün əhaliyə elan olunur ki, vərəqələr təcili ev komitələri tərəfindən yazılıb əhaliyə verilməlidir. Fotoqraf surət ləri isə sabiq elandakı bir ay müddətə bədəl iki ay müddətində hüviyyət [şəxsiyyət] vərəqələrinə yapışdırmalıdır. Kəzalik [həmçinin], polis dairələrinə müraciətdən ötrü, sabiqdə elandakı on günə bədəl təftiş üçün vaxt dəyişilib, hər kəs ayda bir dəfə müayinədən ötrü kəndi polis dairələrinə müraciət etməlidirlər.

Azərbaycan Polis
Müfəttişi-ümumisi Bəhaəddin

HÖKUMƏT QƏRARDADI

Daxiliyyə Nəzarətindən [Daxili İşlər Nazirliyindən], 1918 sənənin təşrini-əvvəlinin [oktyabrının] 27-sindən

Nömrə 9
Müvəqqət Bakı qubernatoru vəzifəsini ifaya müvəzzəf [ifa edən] ərkani-hərb miralayı [qərargah polkovniki] Məhəmməd Fəthi bəy cənabları təşrini-əvvəlin 20-sindən Bakı qubernatorluğuna təyin edilir.

Nömrə 10
Bakı qubernatorunun baş müavini vəzifəsini müvəqqət ifaya müvəzzəf Kiyev hüquq şöbəsini ikmal etmiş [bitirmiş] Müseyib bəy Axıcanov təşrini-əvvəlin 20-sindən Bakı qubernatorunun baş müavinliyinə təyin edilir.

Nömrə 11
Kapitan Əli bəy Zizikski təşrini-saninin 1-indən etibarən Bakı qubernatorunun kiçik müavinliyinə təyin edilir.

Nömrə 12
Sabiq Zaqafqaziya Seymi kargüzarı Yusif bəy Hacıqasımov, məvacibi 1918 sənəsinin təşrini-əvvəlinin [oktyabrının] 10-una hesab olmaq üzrə, mənim baş xüsusi işlər məmurum təyin edilir.

Nömrə 13
Gəncə quberniyasının əhli Səməd bəy Cəmillinski təşrini-saninin [noyabrın] 1-indən etibarən mənim xüsusi işlərə baxan kiçik məmurum təyin edilir.

Nömrə 14
1918 sənənin təmmuzun [iyulun] 17-sindən etibarən kollejski sekretar [kollegiya katibi] Bəhram bəy Rzabəyov mənim dəftərxanam kargüzarlığına təyin edilir.

Nömrə 15
Gəncə quberniyası Əxzi-əsgər [Hərbi qulluğa çağırış] idarəsinin üzvü Dokudovski mənim dəftərxanama təşrini-əvvəlin [oktyabrın] 20-sindən vitse-direktor təyin edilir.

Nömrə 16
Şuşa qəzası üçüncü şöbəsinin mirovoy posredniki [sülh vasitəçisi] Mastidski təşrini-saninin [noyabrın] 1-indən etibarən Ərəş şöbəsi mirovoy posrednikliyinə təyin edilir.

Ümuri-Daxiliyyə
[Daxili İşlər] naziri:
B. Cavanşir

Ziraət Nəzarətinin [Kənd Təsərrüfatı Nazirliyinin] əmrləri

Nömrə 50
20 təşrini-əvvəl 1918 sənə. Mövcibincə [uyğun olaraq] dəftərxanam katibi Fərhad bəy Ağayev eylülün [sentyabrın] 1-indən etibarən öz ərizəsinə görə qulluqdan ixrac edilir.

Nömrə 60
24 təşrini-əvvəl [oktyabr] 1918 sənə. Abbasəli bəy Makinski eylülün [sentyabrın] 1-indən etibarən Ziraət Nəzarətinin [Kənd Təsərrüfatı Nazirliyinin] yuriskonsultuna [hüquq məsləhətçisinə] müavin təyin edilir.

Nömrə 63
26 təşrini-əvvəl [oktyabr] 1918 sənə. Meşəçilər sinfində sayılaraq, xüsusi meşəçilik işlərinə göndərilmiş və Bakı Ziraət [Kənd Təsərrüfatı] İdarəsinə tabe olan Serebryakov, naməlum cəhətə getdiyindən dolayı, eylülün 16-sından etibarən qulluğundan ixrac edilir.

Nömrə 64
Təşrini-əvvəlin [oktyabrın] 17-sindən etibarən meşə departamenti tərəfindən Bakı Ziraət İdarəsi və Dövlət Əmlakına ikinci dərəcə meşəçiliyə təyin edilmiş Şixov vəzifəsini ifaya gəlmədiyindən dolayı, təşrini-əvvəlin 17-sindən etibarən qulluğundan ixrac edilir.

Nömrə 65
Təşrini-əvvəlin 1-indən etibarən 113 nömrəli, 1918 sənəsinin 14 noyabrı fərmanı mövcibincə [fərmanına uyğun olaraq] sabiq xüsusu Zaqafqaziya komitəsinə verilən əmr ilə Bakı Ziraət və Dövlət Əmlakı İdarəsinə təyin edilmiş ikinci dərəcə meşəçi müavini Jelixovski naməlum səbəbdən naşi [ötrü] vəzifəsini icraya gəlmədiyi üçün təşrini-əvvəlin 1-indən etibarən qulluğundan ixrac edilir.

Ziraət [Kənd Təsərrüfatı] naziri:
X. Sultanov

ŞÜCAƏT QILINCI İLƏ DÜŞMƏNİN QILINCINI TİTRƏDƏN ƏRLƏRƏ

Hikmətin başı Allah qorxusudur. Ey müsəlman! Allahu-əzimmüşşanın [şanı uca olan Allahın] əzəmət və cəlalını bilib, ondan qorxmaq gərəkdir. Hər eyilik Allah qorxusundan doğar. Allah qorxusu insanı kötü işləri, şübhəli işləri işləməkdən alı qor [uzaqlaşdırar]. Hər nə isən, Allah qorxusunu əsla xatirindən çıxarma. Dari-dünyada [dünya evində] dəftəri-amalımızı [əməl dəftərimizi] dari-axirətə [axirət evinə] görə tənzim etdirən Allah qorxusudur. Bu dünyanın nizamı Allah qorxusu ilədir. İnsanın qəlbində Allah qorxusu yoxsa, həyatı heyvanlıq olar. Artıq nə namusu qalar, nə həyası qalar, nə din, nə iman. İştə, əbədi xüsran [ziyan; məhrumiyyət], millətlərin batması, millətlərdən Allah qorxusunun silinməsi ilə başlar. Əxlaq gedər, milliyyət gedər, nə istiqbalı [gələcəyi], nə istiqlal, cümləsi gedər. Bir millətdən Allah qorxusu qalxarsa, millətə tam bir ölüm ariz olar [üz verər]. Əfradının [fərdlərinin] qəlbində Allah qorxusu bulunan bir millət dünyaya sahib olar. Mövtü istehqar edər [ölümü saymaz], sahibi-şərəf olar. Allah-taala və təqəddəs [uca və qüsursuz Allah] həzrətləri kəndisindən qorxanlardan xoşnud olar. Ey müsəlman, Allah qorxusu ilə gözdən axan yaşı Allah pək sevər. Allah qorxusu ilə ağlayan gözə cəhənnəm atəşi dəyməyəcəyini peyğəmbərimiz (səlləllahu-təala əleyhi və səlləm) [Allah-taalanın salamı onun üzərinə olsun] əfəndimiz buyurmuşdur. Bunların haqqında bir çox ayəti-kərimələr də vardır. Allahdan qorxmaq onu bilmək deməkdir. Yalnız bilməyən insanlarda əsla xeyir yoxdur. Hər şey Allah qorxusundan gəlir. Vədində sadiq olmaq, əhdində vəfakarlıq göstərmək Allah qorxusu ilədir. Qəlbi məxafətüllah [Allah qorxusu] nuru ilə qılıncın parıldaması kimi parlayan türk, artıq heç bir şeydən qorxma, yalnız Allahından qorx, çünki sizi təriqi-nicata [qurtuluş yoluna], sizi istiqlal və hürriyyətə, səadət və istiqbala götürəcək yoldur. Nə derlərsə desinlər, əzəməti-Bariyə qarşı [Allahın əzəməti qarşısında] milliyyətin titrəsin. Qəlbindəki məxafətüllahdan ötrü, özündən yüksək və özündən kiçik olanları bilərsən, zabitlərinin, amirlərinin [başçılarının] verdiyi əmrləri icra edərsən, əsgərliyin[d]ə - vəzifeyi-müqəddəseyi-vətəniyyənin [vətən qarşısında müqəddəs vəzifənin] ifasında güclük çəkməzsən, Allahın əmrini yerinə gətirərsən. Sizin kimi fərdlər toplanaraq, qüvvətli məcmular [yekunlar], bölüklər, qoşunlar olar. Düşmən sizdən artıq qorxar, kimsə özünüzə və öz torpağınıza hücum gətirəmməz, taqət bulammaz. İştə, bu mərifət də əsgərlikdir. Əsgərliyi daima xatirində, qabağında tut, gur bəlalarını əsgərliklə söndür. Övladı daha kiçik ikən, hətta daha ilk danışmağa başlarkən belə əsgər kəlməsini örgət. Balaları əsgərlikdən azad etdirmək üçün yalan söyləmə, yalan şəhadətdə [şahidlikdə] bulunma. Düz ol, düz danış ki, Allahuzülcəlal [şanı uca Allah] həzrətləri bütün məxluqatın ən xırda işlərini bilir, ən xırda hərəkətlərini görür. Düz işləməyənlər, düz danışmayanlar həm dünyada, həm axirətdə məqhur [qəhr, məhv] olarlar.

29 təşrini-əvvəl 34

SÜLH ƏTRAFINDA

Vilsonun yeni maddələri
Eylülün [sentyabrın] 27-sində Rəisi-cümhur [Prezident] Vilson, bir nitq irad edərək [söyləyərək], sülh proqramına atidəki [aşağıdakı] 5 maddəni əlavə etmişdir:

1. "Millətlər İttifaqına daxil olacaq məmləkətlər biri-birinə də təfəvvüqdən [üstünlük əldə etməkdən] göz çəkməlidirlər. Millətlər həpsi bərabər hüquqa malik olacaqlar.

2. Bir, yaxud bir neçə millətin mənafeyi ümumi mənafeyə zidd olduğu təqdirdə, ümumi etilaf [razılaşma] onu müdafiə edəmməyəcəkdir.

3. Ümumi ittifaq daxilində bu və ya o millətlər arasında xüsusi ittifaq və etilaflar mövcud ola bilməz.

4. İttifaqda bir millət, o biri millətin iqtisadi cəhətlərini təqib edəmməyəcək: iqtisadi boykot qəti surətdə qadağan edilir, fəqət ittifaq bu və yaxud başqa milləti dünya bazarından çıxarmaq ixtiyarına malikdir.

5. Bütün beynəlmiləl müqavilələr ümumi elan edilməlidirlər."

Məlum olduğu üzrə, Maks Badenski tərəfindən İsveçrə vasitəsilə göndərilmiş notada deyilir:

"Almaniya Hökuməti Cəmahiri-Müttəhidə [Birləşmiş Ştatlar] Rəisi-cümhurunun [Prezidentinin] gərək 8 yanvar tarixli nitqində və gərəksə sonki bəyanatında, xüsusən 27 eylül tarixli nitqdə göstərmiş olduğu maddələri sülh əsasına qoyulmaq üçün qəbul edir."

Mütarikə şəraiti [atəşkəs şərtləri]
Amerika Rəisi-cümhuru Vilson, Müttəfiq Dövlətlər hökumətlərinə təklif etmişdir ki, əqdi [bağlanması] möhtəməl olan [ehtimal edilən] mütarikənin şəraitini hazırlasınlar. Vilson bəyan etmişdir ki, fövqəladə təminat tələb edir. Zira, məşrutənin [konstitusiyanın] dəyişməsi alman millətini hökumətin əməlində məsul etməz. Camaat rəyasəti-əsgəriyyəni [hərbi rəhbərliyi] özünə tabe edəmməyir. İşlər həman əvvəlki şəxslərin əllərində qalır. Mötəlif [razılığa gələn] millətlər bu vaxtadək Almaniya siyasəti başında durmuş olanlara etimad göstərə bilməzlər və alman millətinin öylə nümayəndələri ilə mütarikə əqd edə bilərlər ki, doğrudan xalq nümayəndələri olduqlarını qanuni-məşrutə [konstitusiya qanuni] ilə təmin edə bilsinlər.

Cenevədən [Cenevrədən] verilən məlumata görə, fransız sosialistləri sülh məsələsi haqqında Klemansodan izahat tələb edirlər. İctimaiyyunlar [sosialistlər] bilatəxir [təxirə salınmadan] sülh müzakiratı [müzakirələri] başlanması xüsusunda müraciətnamə hazırlayırlar.

Fransa burjuvaz mətbuatı Almaniyanı axıradək döyməyi tələb edir.

İngiltərə etilafçı sosialistləri tələb edirlər ki, bolşeviklikdə məznun olanlar [bolşevik olduğundan şübhələnilənlər], kəsbkarlar ittifaqlarından [həmkarlar ittifaqlarından] kənar edilsinlər.

HƏRB XƏBƏRLƏRİ

- Londondan xəbər verilir ki, "Dundalk" nam [adlı] İrlanda vaporu (paraxodu) bazar ertəsi gecə İrlanda dənizində qərq edilmişdir. 30 nəfər bəhriyyədən [matrosdan] ancaq 13-ü xilas edilib, yerdə qalanlarının müqəddəratı məlum deyildir.

- Hamburqdan işar olunur [xəbər verilir] ki, Berlində "Desaio"nun makina fabrikasında partlayış vaqe olaraq, 70 adam ölmüş, 50-si yaralanmışdır.

- Odessadan Berlinə verilən xəbərlərə görə, Qara dənizə və Tuna [Dunay] çayı kənarlarında kain [yerləşən] Romanya limanları, Romanya Hökuməti tərəfindən qapadılmışlardır.

- Laheydən [Haaqadan] xəbər verilir ki, Flemenk [Hollandiya] Xariciyyə naziri hollandalıların Amerika qoşununa cəlbi münasibətilə Flemenk Hökuməti tərəfindən verilmiş protestoya Amerikanın cavabını elam etmişdir [bildirmişdir] ki, dava etmək istəməyən hollandalıları cəbhədən qaytarmağı təhtiqərar[a] almışdır [qərarlaşdırmışdır]. Fəqət cəbhədən qayıtmaq üçün öylə çətin şərait [şərtlər] qoymuşdur ki, orada bulunanlar həman öyləcə də qalacaqlardır.

QƏZETƏLƏRDƏN

Rusiyada fransız pulları
Maliyyə işlərinə baxan Xalq komissarlığı idarəsinin məlumatına nəzərən, Moskvada və Rusiyanın sair şəhərlərində bulunan fransız pullarının cəmi 30 milyard franka baliğdir [çatmışdır]. Bu məbləğ ümum Fransa sərmayəsinin ondan bir və əcnəbi məmləkətlərdə bulunan fransız pullarının üçdə iki (iki süls) hissəsini təşkil edir.

Türküstanda
Təşrini-əvvəlin [oktyabrın] 22-sində Ənzəli telsiz teleqraf mövqifindən [radiostansiyasından] Petrovska belə bir teleqraf çəkilmişdir: "Zaqafqaziya - Bəhri-Xəzər İttifaqı ordu və donanmasının baş komandanı Biçeraxova, bizim qoşunlarımız Tecanı işğal etmiş və düşməni Mərv tərəfə qovurlar. Fişənk ilə cəbəl [dağ] toplarına ehtiyacımız var."

Kon.

NƏZARƏTLƏRDƏ

Zaqafqaziya pulları
28 təşrini-əvvəl [oktyabr] tarixli hökumət iclasında, Gürcüstan Hökumətinin Zaqafqaziya pulları barəsində etdiyi təklifi müzakirə edilmişdir. Gürcüstan Hökuməti özündən ötrü 80 milyon pul buraxmaq istəyirmiş.

Azərbaycan Hökuməti Gürcüstanın maliyyəsini nəzəri-etibara alaraq, öz razılığını bəyan etmişdir. Fəqət, Gürcüstan Azərbaycana düşəcəyi hissəni və sabiqdən [keçmişdə] verilməmiş hissəni də verməlidir.

Tranzit müqaviləsi
Tranzit müqaviləsi barəsində Gürcüstan ilə Azərbaycan miyanında [arasında] davam edən müzakirat [müzakirələr] hüsni-cərəyan kəsb etməkdədir [müsbət istiqamətdə davam etməkdədir].

Hərbi məktəblər
Azərbaycan Hökuməti-cümhuriyyəsi təşrini-əvvəlin 27-sindəki iclasında qət etmişdir ki, Bakıda açılacaq 3 hərbi məktəbə sərf edilmək üçün Daxiliyyə Nəzarətinə [Daxili İşlər Nazirliyinə] 50 min rublə təxsis etsin [ayırsın].

"Kooperatsiya" cəmiyyətinə nəzarət
Ərzaq naziri Bələdiyyə İdarəsinə işbu əmri göndərmişdir:

Mənə çatan məlumatına görə, Mavərayi-Xəzər müstəhlikini kooperatsiya cəmiyyətinin idarəsi, Bakıdakı anarşi zamanında zərərdidə [zərərçəkən] olmuş, bəzi ittifaqa daxil olmuş [ittifaqa daxil olan bəzi] istehlak cəmiyyətlərinin zərərini vermək xəyalındadır.

Məzbur [adıçəkilən] cəmiyyətin xə zinəyə olan borcunu nəzərə alaraq, tələb edirəm ki, hesabı təmizləməyincə heç böylə iqdamatda [təşəbbüsdə] bulunmasın.

İşbu əmri layiqincə yerinə yetirməkdən ötrü, şəhər upravasından xahiş edirəm ki, həman cəmiyyətin mədaxilməxaricinin təhqiqi üçün xüsusi bir nazir [müfəttiş] təyin etsin. Bu nazir cəmiyyətin fəaliyyəti barəsində bizə hər ay məlumat verməlidir.

Maarif Nəzarətində [Nazirliyində]
Maarif Nəzarəti tərəfindən Hökumət Şurasında baxılmaq üçün işbu məruzələr hazırlanmışdır.

1. Zaqatala ali-ibtidai məktəbi nazirinə [müfəttişinə], məktəbi təmir etmək üçün 1885 rublə təxsis etmək [ayırmaq] xüsusunda.

2. İşbu nazirə məktəbi leyli etmək [internat məktəbinə çevirmək] üçün, yəni məktəb cənbində [nəzdində] pansiyon açmaq üçün 45454 rublə.

Həmin Nəzarət tərəfindən Hökumət Şurasında heyəti-məmurini haqqındakı [məruzə] müzakirə ediləcəkdir. İdarə müdirliyinə Maarif nazirinin xüsusi məmuru Məhəmmədbağır Şeyxzamanov təklif edilir.

BƏLƏDİYYƏ İDARƏSİ NƏ YAPIR?

Bələdiyyə İdarəsinin ümdə vəzifələrindən birisi və böyüyü şəhər əhalisinin səhhətini həmişə nəzərdə tutaraq, hifzüssihhə [gigiyena] qanununun mükəmməl surətdə tətbiqi və riayəsinin təqibidir [qanuna riayət edilməsinə nəzarətdir]. Xüsusən müharibə və bahalıq zamanı bu məsələdə Bələdiyə İdarəsi öhdəsinə pək böyük vəzifələr və məsuliyyət düşür. Zira, hərbin tövlid etdiyi [doğurduğu] şərait təhtində [şərtlər altında] adətən, xalq arasında min dürlü sari [yoluxucu] və qeyrisari [yoluxucu olmayan] xəstəliklər münasib zəminə taparaq, fövqəladə sürətlə intişar edir [yayılır]. Bilxassə ki, yenə hərbin doğrudan-doğruya nəticələrindən olan bahalıq vaxtı, yemək şeylərinin gərək kəmiyyət və gərəksə keyfiyyət cəhətincə normadan pək aşağı olduğundan dolayı, əhali arasında, xüsusən füqəra sinfi miyanında [arasında] bir çox xəstəliklər peyda olar. Bundan dolayıdır ki, hərb və bahalıq vaxtı şəhər ataları öhdəsinə bir ailə başçısı kimi, tam [bütün] şəhərin qeydkeşliyi vəzifəsi düşər. Hal-hazırda xəstəliklər intişarına [yayılmasına] səbəbiyyət verən bu şəraitin [şərtlərin] hər ikisi mövcuddur.

Şimdi hər bir vətəndaşın, bilxassə bələdiyyə heyətinin borcudur xəstəliyin önünü almaq üçün hər dürlü tədbirlər görsün və çalışsın ki, bari əlacı öz əlimizdə olan amillər dəxi dərd üstünə yeni dərd artırmasınlar.

Böylə amillərdən birisi şəhərin tibbiyyə və səhiyyə cəhətindən qayət fəna bir halda olmasıdır. Küçələrdən keçənlər, xüsusən kənar məhəllələrdə bir çox şeylər görürlər. Məsələn, bu günlərdə şəhəri gəzərkən, Zavedenski - Verxni-Naqornı küçələrinin küncündə bir at leşi gördüm. Bir az sonra Zavedenski küçə ilə gedərkən, şiddətli bir üfunət eşitdim. Ətrafıma baxdıqda iki pişik (kedi) ölüsü gördüm.

Hələ küçələr uzunu hər yerdə koma-koma zibil yığılması son zaman sanki bir adi hal surəti kəsb etmişdir. Halbuki, bu işlərə baxmaq üçün, Bələdiyyə İdarəsinin müəyyən şöbələri var. Bu işlərə nəzarət yetirmək Bələdiyyə İdarəsi Tibbiyyə və səhiyyə şöbəsinin vəzifəsidir. Küçələri təmizləmək üçün şəhərin həmişə külli miqdarda süpürgəçisi, arabası vardı. Adətən böylə işlərə lazımınca diqqət verilirdi. Şimdi isə, Bələdiyyə İdarəsi guya bütün vəzifələrini unutmuşdur. Şimdi guya şəhər yaxud bələdiyyə xidmətçiləri bilmərrə dəyişmişlərdir. İnsan Bakının şimdiki halına baxdıqda, ürəyi yanır. Bakı kimi bir şəhərin tibbiyyə və səhiyyə, təmizlik və abadanlıq işlərinin bu halda olması, nəhayət dərəcə müəssif [təəssüf doğuran], həm də müəssif olduğu qədər də əhali üçün təhlükəli bir əmrdir [işdir]. Böylə natəmizlikdən, şübhəsiz, min dürlü xəstəliklər tövlid edər [yaranar]. Hazırki şərait altında isə, xəstəliklərin intişarına sədd çəkmək, qabağını almaq asan işlərdən deyildir.

Bundan dolayıdır ki, Bələdiyyə İdarəsinin nəzər-diqqətini bu xüsusa cəlb ilə ümidvar oluruz ki, küçələrin təmizlənməsi, leşlərin küçədən qaldırılması və sairə haqqında ciddi tədbirlər görür. Şayəd şəhər "obozu" [nəqliyyat vasitələri] zəifləşmiş, süpürgəçi azalmışsa, Bələdiyyə Məclisi böylə nöqsanın bir an əvvəl islahına çalışmalıdır.

Xəlil İbrahim

ÖYÜN, MİLLƏT*

Yavərani-həzrəti-şəhriyaridən Qafqaz İslam Ordusu Baş komandanı sipəhsalari-ə'zəm dövlətli fəriq Nuri paşa həzrətlərinə ithaf olunur.

Öyün, millət ki, əltafı olub şövkətli sultanın,
Hilalın haləsi qılsın əhatə türk övtanın.

Təfaxür eylə, ey millət, muradın hasil olmuşdur,
Daha əflakə yüksəlməz əninü ahü əfqanın.

Ziyasız rus zülmündən o yüksək ruhun ölmüşdü,
Tutardı şişəyə hər dəm şərabi-nab tək qanın.

Qızılgül tək açıl, gül, gör ki, türkün şanlı ordusu
Rəvaqi-ərşə nəsb etmiş böyük Osmanlı ünvanın.

Səmaya doğru toğrul tək sən ey türk oğlu, uç, yüksəl,
Ki, sənsən şanlı övladı şərəfli, əski Turanın.

Bulud altında qalmışdı əgərçi kövkəbi-bəxtin,
Gör imdi nəcmi-zahir tək hilalın, nəcmi-tabanın.

Gərək taqi-müqərnəsdən asılsın türk tuğrası,
Mələklər zibi-duş etsin livasın ali-Osmanın.

Bütün mümtaz ellərdən olur türk milləti mümtaz,
Sürər bundan sora türklük şərəfli-şanlı dövranın.

Məhəmmədəmin oğlu
Salman Mümtaz

TÜRK ƏDƏBİYYAT VƏ LİSANI VƏ TÜRK CƏRƏYANİ-ƏFKARI [TÜRK ƏDƏBİYYATI VƏ DİLİ, TÜRK FİKİR CƏRƏYANLARI]

(Ruşən Əşrəf və Ruşəni bəylərin konfransı)

(keçən sayıdan mabəd)

Ruşən Əşrəf bəy cənabları, məzkur [haqqında bəhs edilən] müqəddimədən sonra əsl mövzunu təşkil edən türk ədəbiyyatına keçərək ədəbiyyat tarixi ilə həyati-milliyyənin [milli həyatın] müvazi tərəqqisini [paralel inkişafını] böylə təsvir edirlər:

"Millətlərin əskilərindən biri olan və bəşəriyyət tarixi ilə yaşıt (bir yaşda) bulunan türk milləti, çox şeylər gördü, keçirdi. Himalay dağlarının təpəsi necə buludlar içində qalıb gözlərimizdə gözükməyirsə, türk tarixinin də o qədər ulaşılmaz yüksəklikləri var ki, onların həpsini qavramaq bana vergi [mənim gücüm çatan iş] deyildir.

Yalnız türklərin bir qismi yenə türklərin bir qismindən ürküb, qərbə doğru qaçdığı vaxt, ümumi türk tarixində yeni bir aləm doğurdu. Zira türklər yer üzündən silinməsi qabil olmayan bir millətdir. Nerədə onu batırmağa çalışdılarsa, o, heç bəklənmədən bir tərəfdən çıxmış və varlığını göstərmişdir.

İştə, Ərtoğrul Qazinin hicrət qafiləsi bir türk diyarından, özgə bir türk diyarına - Səlcuqilərin hökm sürdüyü diyara qondu. O vaxt Səlcuqilər tamamilə iraniləşmiş, adlarını belə İran siyaqında [tərzində] qoydurmuşlardı. Hökumətin qullandığı, danışdığı dil, İran dili idi. Adətləri, zövqləri, süsləri həmən-həmən həp iraniləşmişdi. İran kəndini bütün Şərqə tanıtmış böyük, qədim və şümullu [geniş yayılmış, əhatə dairəsi geniş] bir mədəniyyətdir, fəqət Osman Qazi, Səlcuqi ənqazı [qalıqları] üstünə dövlətini qurduğu vaxt, iki istiqlal birdən elan etdi. İstiqlaliyyətin biri siyasi, digəri dəxi lisani idi.

Osmanlı dövləti türk dili ilə bərabər quruldu. Bu isə türk millətinin və türk dilinin tarixində unudulmaz bir səadət anıdır. Bir yenilik başlanğıcıdır. Ondan sonra gün-gündən böyüdü, gözəlləşdi, nazikləşdi. Fəqət lisanı, dövləti qədər istiqlaliyyətini saxlayammadı. Hicrət [köç] yollarından bir çox adət və kəlmə alınmışdı. Yeni vətəndə də İran dili, İran mədəniyyəti bulunmuşdu. Dinimiz də ərəblərin dini idi.

Demək ki, vəznimizi, şeir qaydalarımızı, xəttimizi, sərfimizdən [morfologiyamızdan] bir çox qaydanı ərəblərlə farslardan həman [eyni ilə] aldıq. Yalnız bu yabançı qaydaların içində türk kəlmələri yavaş-yavaş gürbüzləşdi [gücləndi] və iyi parçalar da yazıldı, hətta ilk günlərimizdən bizə çox qiymətli və çox qüdsi bir abidə kimi qalan, hər oxunuşda həpimizi təəssür [duyğular] və sevgi ilə dolduran "Mövlud" vardır. Bunu Süleyman Çələbi yazmışdı.

Fateh dövründə türk dili daha qüvvətli olurdu. İştə Şeyxilər, Necatilər, Zatilər, Sinan paşalar o dövrdə dilimizə və sənətimizə qüvvə gətirən kişilərdir.

Süleyman Qanuni dövrü siyasətimizin olduğu qədər, ədəbiyyatımızın da bir böyüklük fəsli idi. O vaxtın ruhlarına şahlıq edən iki şair söyləyəcəyəm ki, biri İstanbul nəzminə yeni siyaq [üslub] verən Baqidir. O biri də si-zin və bizim ən dərin, ən yanıq şairlərimizdən sayılan cənabi-Füzulidir. Denə bilər ki, Füzuli Azəri türklərini Osmanlı türklərinə ulaşdıran, bu iki diyar arasında həşmətlə qonan bir abidədir. O öylə bir abidə oldu ki, onu siz və biz müştərək bir ziyarətgah kimi gördük, sevdik.

Fəqət Füzulinin iki tərəfə də görünüşü başqa-başqa idi. Bizim duyğularımıza, sizin duyğularınıza və dilinizə əsər etdi.

Füzuli çox millətsevər, dilini çox istər bir böyük qəlbli bir türkdür. Ərəbcə və farsca gözəl şeirlər yazılıb, türkcədə böylə şeylər yazılmaması onu üzürdü. Həp türkcəni zənginləşdirmək qayğısı ilə çalışdı. "Leyli və Məcnun"u bir eşq saiqəsi ilə [eşqin sövq etməsi, ilham verməsi ilə] türkcəyə keçirdi, fəqət Füzulidən sonra iki türk ədəbiyyatı arasında təfavüt böyüdü, bir-birimizi adəta bir dəştdə [səhrada] itirdik. Uzun müharibələr, siyasi və dini savaşlar nahaq yerə bir millətin iki qolunu bir-birinə düşmən qıldı. Bununla bərabər, necə də ayrılsaq siz də, biz də İran ədəbiyyatının təsiri altında qaldıq. Nəfi kimi, Nədim kimi, Şeyx Qalib kimi ən böyük, ən dəyərli şairlərimiz belə Feyzi Hindi, Saib Təbrizi, Şövkət Buxari kimilərə həp nəzirə və təqlidlər yapdılar. Bütün əndişələr [düşüncələr] İran qafasından qaynayıb çıxmış bir taqım şeylərə bənzəyirdi.

*İşbu abdar [parlaq] şeir Qafqaziya İslam Ordusu Baş komandanı dövlətli fəriq Nuri paşa əfəndimiz həzrətlərinin Şəkiyə vürudu [gəlişi] münasibətilə Qafqaziya şüarasından [şairlərindən] möhtərəm Məhəmmədəmin oğlu Salman "Mümtaz" əfəndi tərəfindən bədahətən söylənmiş və paşa həzrətlərinin naminamilərinə [məşhur adına; şanına] ithafən təb [çap] və nəşr edilmişdir.

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 30 oktyabr (çərşənbə günü) tarixli XXVI nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Türk padişahları həp İran şahı, türk qadını həp əcəm qadını, türk ruhu və adabı [qayda-qanunu, ədəb-ərkanı] eyni ilə bir iranlı adab və əxlaqı kimi təsvir və tələqqi [qəbul] edilirdi. Öylə ki, ədəbiyyatımız İran ədəbiyyatının İstanbul şöbəsi olmuşdu. Halbuki İran ədəbiyyatı yüksəkdi. Çün o millətin ürəyindən doğma idi. Bizdə isə kiçik qalırdı. Çün təqliddi. Ruhdan qopmayır, qafadan çıxırdı. Hər bir gözəlliyi iranlılar kimi düşünürdük. Məsələn, bir şairimiz tərsim [təsvir] etdiyi bir gözəlin qaməti üçün mütləqa bir sərv, qaşları kaman, hörükləri birər ilan olduğunu bir qiyas [müqayisə] qalıbı ədd edirdi [sayırdı].”

Buraya gəldikdə, qafqaziyalılarca bəsbəlli olan mərhum Sabirin əski şairlərimizin sevgilisi haqqında yazdığı övsafda [vəsfdə, sifətdə] Ruşən Əşrəf bəy kəndi vətəndaşlarına söyləyir: - Bir sərv üzərində iki ox yayı olarsa, kirpiklər oxlara bənzərsə və bir başın sağından-solundan bir qaç dənə ilan asılmış olarsa, o qadında nasıl bir gözəllik meydana çıxacağını sorur.

Sonra, - “Osmanlı şairləri əşarda [şeirlərdə] hürufat, cinas və təşbehat [təşbehlər] ilə uğraşdılar,” - deyir.

“Bir misranın başındakı hərfi digər misra başına qovuşdurduqda ondan nasıl bir məna tövlid edər [meydana çıxan] kimi beytlər ilə nəzmin zahiri tərəfini söylədilər. Qafiyə xətri üçün beyt, beyt xətri üçün qəsidə, qəzəl yazdılar. Bunlarda da nə ruh təsviri vardı, nə də təbiət təsviri. Gərçi Nədim və sonra Şeyx Qalib bir az təsvir gətirdilər. Nədimin qəzəllərində ciddən gözəl eşq hərəkətləri, ruh şənlikləri və coşqunluqları vardır. Öylə ki, Osmanlı dövləti [kimi] əsrlərcə bu ərz [yer] üzərinə ən mühüm dastanlar yazan, qəsidələrə və həcviyyələrə səbəbiyyət verəcək xislətləri və nöqsanları olan bir dövlətin üç-dört əsrlik həyatı ədəbiyyatda həman [demək olar ki] heç bir iz buraxmadan getdi. Yalnız Füzulinin, Nəfinin, Nədimin bir qaç qəsidəsilə, bir qaç qəzəli şöylə xəfif bir həyat göstərdilər. Şeirimizdə də, nəsrimizidə də bizimkilər böylə oynayarkən Avropada Volterlər, Jan Jak Russolar, Monteskyölər, Didrolar və bunlardan əvvəl Kornellər, Rasinlər, Madam de Lafayetlər, Roşfukolar, Molyerlər gəlmişdi. Ədəbiyyat həyata doğru qoşur, istiqbal yollarını açan, aydınladan bir məşələ olurdu. Avropada zaman-zaman inqilablar doğmağa başladı. Hətta Fransa ixtilalikəbirindən [böyük inqilabından] sonra Napoleon əsrində Avropa əfkari-amməsi [ictimai rəyi] böyük təbəddülata [dəyişikliyə] uğradı. Həp dövlətlər silahlarını təkmil etməyə [təkmilləşdirməyə] çalışdılar. Ordunu yeni intizam üzrə təlim etdilər. İctimai və siyasi həyat üçün yeni yollar açdılar. Ədəbiyyatları da təkəmmül etdi [kamilləşdi], fənlər[i] [elmləri] də. Avropanın böyüklüyü qarşısında biz köhnə halımızla qalammazdıq. Qaldıqca yenilirdik. Nəhayət 3-üncü Sultan Səlim də ordumuzu və həyatımızı dəyişmək fikrinə düşdü. Onu əskilər öldürdülər. 2-nci Mahmud taxtı-Osmaniyə [Osmanlı taxtına] cülus etməsi [çıxması] ilə islahat və təcəddüdata [yeniliklərə] başladı. Sonra oğlu Sultan Məcid, Gülxanə xətti-hümayun[u] [Gülxanə fərmanı] ilə məmləkətdə islahata davam etdi. Avropaya təqərrüb ediləcəyi [yaxınlaşılacağı] xüsusunda təbliğ edildi. Kitablarla, məktəblərlə, ordu ilə buna çalışıldı. O vaxt da Türkiyə müstəid [istedadlı] gənclərindən Avropaya təhsil üçün Şinasini göndərdi. Şinasi, əcnəbi məmləkətlərində gördüyü yeniliyi həp vətəndə həyata, ədəbiyyata tətbiq etməyə başladı. Avropada olan kimi o zaman türk ədəbiyyatında təsviratdan, yəni gördüyünü eyni ilə kağız üzərində yazmaqla oxuyanın gözü önündə işbu mənzərəni cilvələndirmək qüdrətindən bir şey yox idi. Teatro tərzi, roman, hekayə, trajedi, təbiət və ruh təsvirləri də gözükməyirdi. Ədəbiyyatımızda nə təhlil vardı, nə tərkib. Bunların ədəbiyyatımıza girməsinə Şinasinin açdığı dövr səbəb oldu. Şinasinin vasitəsilə türk ədəbiyyatı birinci yeniliyi gördü, duydu. Türkiyədə qəzetələr çıxmağa başladı.

(yenə var)

YASLI BİR XƏBƏR

Həqiqət, hər bir yaslı xəbəri qəzetələrdə və ya qeyri adamdan eşidib görəndə vəfat edən kişinin isminə baxıb və nə uğurda çalışdığını görüb təəssüf edərsən. Əgər türk millətinin uğrunda çalışıbsa, həqiqət, adama pək ziyadə təsir verər. Ələlxüsus, mərhum arxadaşımız Kərbəlayi Cahangir Zeynalovun vəfat xəbərini “Azərbaycan” qəzetəsinin 24-cü nömrəsində oxuyub, xeyli yaslı bir xəbər olmaq cəhətinə mən də bu məktubu xəstə yatağı mın içində göz yaşımla, arxadaşım Kərbəlayi Cahangirin qövm-əqrəbasına sərsələməti [başsağlığı] vermək ilə və mənlə “Səfa” məktəbində nə qədər zəhmətlər çəkibdir. Mən “Səfa” cəmiyyət və məktəbi bulunan Çəmbərəkənd məhəlləsinin camaatı tərəfindən izharı-təəssüf edib [təəssüfümü bildirib], Kərbəlayi Cahangir mərhumun ruhuna fatihəxan olaraq [“Fatihə” oxuyaraq] qövm-əqrabalarına sərsələməti verir və mərhumun rəhmətdə olmasını Haqq-taaladan istirham edirəm [diləyirəm].

Kərbəlayi Balakərim Salamzadə

İSLAM QADINLARINA MÜRACİƏTNAMƏ

Bu sərlövhə altında erməni qadınları türk-islam xanımlarına müraciətən, “Azərbaycan” idarəsinə aşağıdakı məktubu yazmışlardır:

“Biz erməni qadınları, validə və bacıları, müsəlman qadınları, validə və bacılarına müraciət ediriz.

Biz Qafqaziyada on sənələrlə müttəhidən [birgə] yaşamışız. Dərdimiz ümumi, səadətimiz birgə olmuş. Biri-birimizə gediş-gəlişimiz olmuşdur. Evlərimiz ayrı olmamışdır. Aramızda heç bir xüsumət [ədavət] və düşmənçilik baş verməmişdir. Fəqət, 1905-ci il bəd-bəxtanə həyatımıza düşmənçilik, küdurət salıb, xüsumət toxumları saçaraq rahatımızı pozmuşdur. Qara fikirlilərin himməti [səyi] ilə mənhus ədavət davam edərək həyatımızı zəhərləmiş, ürəyimizə ağu [zəhər] saçmışdır.

Biz düşmənçilik ilə uğraşdığımız vaxt, başqa millətlər mədəniləşməyə çalışmış, biz isə sanki başqa mənafemiz yoxmuş kimi, ancaq yek-digərimizi itlafa [təlaf etməyə] çalışmaqla, müsibətimizi artırdıq. Şimdi biz erməni qadınları siz islam qadınlarına müraciət ediriz. Gəlin əl-ələ verək. Yalnız biz öz erkəklərimizin qəlblərindəki düşmənçilik yalovunu söndürə biləriz. Bunların mürəbbiyəsi [tərbiyəçisi] biz, bunları həyata hazırlayan biziz. Biz də çox şey edə biləriz, etməliyiz də. Gəncə, Şəki, Şuşadan islamlar ilə ermənilərin əlaqələri əvvəlkindən eyiləşmiş, fəqət bircə bakılılar biri-birinə yabançı olmuşlardır.

Siz müsəlman qadınlarına müraciət ediriz. Vəziyyətimizi düşününüz, gələcəyimizi düşünəlim. Düşmənçiliyi buraxmaz isək, bizi nə kimi bir hal gözlədiyini anlayalım. Siz də öz səslərinizi ucaldınız. Səslərinizin eşidiləcəyinə itminanımız [əminliyimiz] var. Qoy, bizim və sizin müttəfiq səsiniz, işbu iki millət erkəkləri ürəyində yaxşı hisslər oyadacaq bir nakus [zəng; kilsə zəngi] sədası olsun.

Əziz islam anaları, bütün cahan sülh deyə çalışır. Biz də sülhə dəvət etməzsək, böyük cinayət işləmiş olarız.”

Məktubun axırında 16 imza vardır.

TSUQMAYER İLƏ MÜSAHİBƏ

Tiflis qəzetələri mühərriri ilə müsahibə əsnasında professor Tsuqmayer bəyan etmişdir ki:

Gürcü hökumətinin təvəqqeyilə [xahişi ilə] general Fon Kress alman qoşunlarının Gürcüstandan aparılmamasını istida [xahiş] etmişdir. Fəqət, əmrin dəyişməsinə ümid azdır. Gürcüstandan alman qoşunlarının çağırılmalarının səbəbinə gəlincə, əmrdə bir səbəb göstərilməmişdir. Fəqət, iki ehtimal ola bilər:

1) Gürcüstandakı alman dəstəsinin mərkəzi qüvvədən ayrılmaq qorxusu;

2) Sülh müzakiratının [müzakirələrinin] Rus[iya] ilə əlaqədar olan siyasi mülahizə.

- Varna və Burqaz almanlar tərəfindən tərk edilib, hazırda Müttəfiqlər əlindədirlər. Fəqət, burası Bəhri-siyahda [Qara dənizdə] alman hərəkatına bir təhdid təşkil etməz. Zira, məzkur [adıçəkilən] limanlarda donanma yoxdur. Bəhrisəfiddən [Aralıq dənizindən] də dəmir yolu ilə sualtı qayıqları gətirmək üçün, bu nöqtələrdə qayığı pozmaq və sonra inşa etməkdən ötrü yeni verflər [tərsanələr] inşa etməlidir.

- Qərb cəbhəsində almanlar cəbhəni qısaltdıqdan sonra, almanların vəziyyəti yaxşılaşmışdır. Bir ingilis xəbərində deyilir ki, almanların ricəti [geri çəkilməsi] dayanmışdır.

- Avstriya-Macarıstanda məşrutənin [konstitusiyanın] müxtəlif ölkələrə daha artıq muxtariyyət verilməsini tələb edici bir surətdə dəyişməsi hazırlanır.

- Bolşevizmin Avropada intişarı [yayılması] haqqında varid olan suala cavabən professor demiş ki, bir məmləkət bolşevik qayəsinin intişarından məhfuz qalmamışdır. Fəqət, Rusiya Şuralar Hökumətinin cahana vermiş olduğu ibrət dərsi sair millətləri bolşevik yolu ilə getməkdən daşındırar.

- Ümid var ki, gürcü-erməni ixtilafı sülh ilə yatırılsın. Almaniya bu ixtilafa qarışmamağa çalışır. Əhdnaməmizin Gürcüstan sərhədinin mühafizəsi haqqındakı maddəsinə əməl etmək məsələsinə gəlincə, Almaniya buna o vaxt əməl edər ki, gürcü hökuməti Almaniya heyəti-müərxəsəsinə [nümayəndə heyətinə] bu xüsusda müraciətdə bulunsun. Hələ böylə müraciət vaqe olmamışdır.

BAKI XƏBƏRLƏRİ

Azərbaycan Hökuməti mühəndis [M. N.] Vinoqradova tapşırmışdır ki, irəliçə Əncüməni-daniş [Elmlər Akademiyası] və sair fənni [elmi] müəssisələrin təhti-idarəsində [idarəsi altında] olub da, bütün Azərbaycanda bulunan ümum fənni müəssisə və idarələri nizama salsın və onların halı və atidə [gələcəkdə] davamı xüsusunda bir məruzə təqdim etsin.

Sənaət [sənaye] məktəbi

Mühəndis Vinoqradovun Tiflisdə bulunan edadi sənaət məktəbinin Bakıya köçürülməsi xüsusunda Ziraət [Kənd Təsərrüfatı] naziri həzrətləri məzkur [adıçəkilən] mühəndislə bir müqavilə bağlamışdır. Müqavilənamə mövcibincə [müqaviləyə uyğun olaraq], şu məktəb, Ziraət Nəzarətinin təhti-idarəsində [idarəsi altında] olacaqdır. Nəzarət məktəb üçün ev və təcrübə və sairə üçün yer verməyi iltizam edir [öhdəsinə götürür]. Ev və üç yüz bin rublə pul buraxıldıqdan bir ay sonra, məktəbi açmağı mühəndis öhdəsinə alır. Bu məktəbin açılmasından murad xalq arasında ziraət və fəllahət [kənd təsərrüfatı və əkinçilik] işlərinə aid elm və məlumata intişar verməkdir [yayılmasını təmin etməkdir]. Məktəb iki şöbədən ibarət olur:

1) Ziraət [kənd təsərrüfatı]; 2) sənaət [texniki-incəsənət] şöbələri. Bunların da hərəsi iki şöbə olub, əkinçilik, su işləri, əkinçiyə lazım makinalar inşası və sairə kimi fənlər tədris ediləcəklərdir. Bu il, iki ehtiyat [hazırlıq] və iki böyük sinif açıla biləcəkdir. Məktəbdə ehtiyat sinfindən başqa, tədris 4 il olacaqdır. Birinci ehtiyat sinfinə daxil olmaq üçün, iki sinifli məktəb qurtarmaq lazımdır. Birinci sinfə girmək üçün, 1872 sənəsi qanunu ilə açılmış məktəbləri bitirmiş, yaxud o qədər oxumuş olmalıdır. Rusiya ali məktəblərinin fənə bir halda olmalarından dolayı, bir çox professorlar işsiz qaldıqlarından, bu məktəbə lazım olan qədər yaxşı professorlar dəvət etmək olacaqdır.

Məvaciblər

Hökumət dəmiryolları, jandarmaları, Bakı Polis Müfəttişi-ümumisi və qulluqçularına veriləcək məvacibdən ötrü, Daxiliyyə Nəzarətinə 140.000 rublə təxsis etmişdir [ayırmışdır].

- Azərbaycan Hökuməti-cümhuriyyəsi qətnaməsi mövcibincə [qətnaməsinə uyğun olaraq], Bakı Müfəttişlik Palatası müdiri Aleksey Petroviç Delitsın Azərbaycan Dövlət Nəzarəti müdirliyinə təyin edilmişdir.

Yəhudilər miyanında [arasında]

Yəhudi Milli Komitəsi, Bakı qubernatoru cənabları indində [nəzdində] Quba yəhudi qaçqınlarını yerlərinə aparmaqdan ötrü, pulsuz vaqon verilmək barəsində təşəbbüsatda bulunmuşdur. Qubernator cənabları, işbu istidanı [xahişi] qəbul edərək, Xaçmaz mövqifinədək [stansiyasınadək] 27 vaqon verilməsi xüsusunda binagüzarlıq etmişlərdir [sərəncam vermişlərdir]. Bu vaxtadək 1100 nəfər qaçqın göndərilmişdir.

Gömrükxana

Gömrükxananın ən ümdə vəzifəsi İran ilə sabiqki [əvvəlki] müamiləni [əməliyyatları] təcdid [bərpa] etməkdir. Gömrükxana fəaliyyətə başlamışdır. Fəqət, müvəqqət olaraq İran ilə müamilə olmadığından [əməliyyat aparılmadığından], fəqət sərnişinlər əşyası və anbardakı malları təhqiq etməyə iktifa [kifayət] edir. Gürcüstan hüdudu və Zaqatal nahiyəsində birər gömrükxana şöbələri açılmışdır. Balakən gömrükxanası ikinci sinif, Mağalı üçüncü sinif, Laqodexidən 5 çağrım məsafədə Marinçay körpüsündə də bir gömrükxana təsis edilmişdir. Gürcüstan sərhədini möhkəmləşdirmək qəsdilə Qazax qəzasında iki şöbə açılmışdır. Salahlı və Şıxlı köylərində gömrükxana mal buraxmaq ixtiyarından məhrum olmaqla bərabər, sərnişin və onlara lazım olacaq əşyanı buraxırlar. Mallar isə yaxında Poylu, Balakən, Maqalinskə göndərilir.

Fəhlə klubları

Kəsbkarlar Şurası ən yaxın zamanda şəhər və dairələrində [rayonlarında] fəhlə klubları açmaq fikrindədir. Şura dəvətindən ötrü izin hasil etmək qəsdilə, Azərbaycan Hökuməti indində [nəzdində] istidada [xahişdə] bulunur. İşbu məsələlər müzakirə ediləcəkdirlər:

1) İttifaqların halı barəsində məruzələr;

2) İttifaqın gələcək həyatı və fəaliyyəti;

3) Maliyyat [maliyyə məsələləri];

4) Təşkilat və iclasda ariz ola [meydana çıxa] biləcək başqa məsələlər.

Şəhərin təmizliyi

Osmanlı komandanlığı şəhərin küçələrinin nəhayət dərəcə zibilli olduğunu nəzərə alaraq, təmizlik məsələsində Bələdiyyə İdarəsinə yardım etməyə qərar vermişdir. Bu məqsədlə, Mürsəl paşa həzrətləri Bələdiyyə rəisi müavini Mehdiyevi hüzuruna dəvətlə bəyan etmişlər ki, müvəqqət olaraq Bələdiyyə İdarəsi binagüzarlığına [sərəncamına] 40 at verilməsi barəsində binagüzarlıq edilmişdir. Bu günlərdə 100-110 at daha veriləcəkdir. İlk dəfə şəhəri təmizləmək üçün 5-6 dənə də böyük avtomobil buraxılacağı mümkünatdandır. Şəhər atları üçün, Ərzaq və mühimmati-əsgəriyyə idarəsindən ələfiyyat [ot-ələf, heyvan yemi] buraxmağı da Mürsəl paşa həzrətləri ayrıca vəd etmişlər.

İdarədən: Şəhərin təmizlik cəhətindən bunca fəna halda bulunduğu zaman, bu müavinət Bələdiyyə İdarəsi üçün böyük əhəmiyyəti haiz olduğundan, Bələdiyyə İdarəsi və şəhər əhalisi boynuna böyük minnətdir.

LƏNKƏRANDA

(xüsusi müxbirimizdən)

Payız mövsümünün hülulu [gəlməsi] ilə güclü yağışlar yağmağa başlamışdır. Bundan dolayı, şəhərlə kəndlərin əlaqəsi kəsildiyindən, ərzaq bahalanır. Məkulatın [ərzağın] bahalanmasının ümdə səbəbi, Ərzad İdarəsinin bahalıqla mübarizədən aciz olduğu halda, azadə satışa mane olmasıdır.

Erməni qoşunları müsəlmanlar arasında axtarış və həbslər yapdığı əsnada, məşhur qaçaq Yunis öz dəstəsi ilə şimali rus kəndləri üzərinə düşüb, çalıb-çapmışdır.

Köməyə göndərilmiş erməni qoşunları geri qayıtmağa məcbur olmuşdur.

T. B.

TEATRO VƏ MUSİQİ

Hacıbəyov qardaşları müdiriyyəti tərəfindən qış teatro mövsümünün açılması bu günlərdə gözlənir. Rəsmi-güşad [açılış mərasimi] Hökumət (sabiq Mailov) teatrında icra edilərək, birinci növbədə türk məşahiri-ədəbasından [məşhur ədiblərindən] Namiq Kamal əfəndinin “Akif bəy” yaxud “Namus” adlı əsəri mövqeyi-tamaşaya qoyulacaqdır. Rəsmi-güşadın təntənəli bir surətdə icrasına diqqət verilərək, Bakıda yaşayan əziz Osmanlı qardaşlarımıza da xüsusi dəvətnamələr göndəriləcəkdir. Rəsmi-güşadın müfəssəl proqramı, xüsusi vərəqələri elan ediləcəkdir.

2-nci növbədə yenə həmin ədibin əsəri olan “Vətən” faciəsi mövqeyi-tamaşaya qoyularaq, bütün hasilatı Azərbaycan hərbində canını qurban edən qəhrəman şühədanın [şəhidlərin] övladları nəfinə [yararına] gedəcəkdir.

Bu teatroda müdiriyyət və aktyorlar bitəmənna [təmənnasız] çalışaraq qərar vermişlər mədaxilin çox olması üçün teatro, mətbəə, parikmaxer, rekvizitor, xülasə, ümum teatroya aid şeylər məccani [pulsuz] olsun.

KÖYLƏRİMİZİN HALI

Lahıc qəsəbəsindən bizə yazırlar:

Lahıc qəsəbəsi, Şamaxı mahalında dörd dağ arasında vaqe bir qəsəbədir və burada şose yolu olmadığına görə, cığır yolları ilə ancaq at və qatır işlər. Şamaxı şəhərində və ətrafında erməni-müsəlman davasında bir Lahıc qəsəbəsi salamat qalıb, onun da yollarının həpsini ermənilər tutmuş idilər. Lahıcda əsla ziraət [əkinçilik] olmadığından, daima taxılı Şamaxı ətrafından və Qubadan və ətraf erməni köylərindən almağa məcbur idilər. Odur ki, neçə dəfə həman yolları tutan ermənilər ilə bir dəstə müsəlləh [silahlı] süvari adam atışa-atışa yol açıb gedib, Gəncədən, Ağdaşdan, Kürdəmirdən taxıl gətiriblər və xərci-kirayə [kirayə ilə yük daşıma xərci] ağır qiymətə tamam olduğundan dolayı, çox baha qiymət ilə taxıl gətirib camaata veriblər və axırda iki ay qəderi mal əti, fındıq, ələfiyyat [ot], nəbatat [bitkilər] ilə dolanıblar. Camaat mart ayından türklər gələnədək, ətrafda olan dağları səngər vurub, gecə-gündüz qarovulda olublar. Lakin, bir tərəfdən aclıq, bir tərəfdən dava hazırlığı, digər tərəfdən naxoşluq və pulsuzluq camaatı təhəmmülü [dözülməsi] müşkül olan dərdlərə salmışdır və bu müddətdə ətraf köylərin hansına ermənilər hücum edirdisə, Lahıcdan oraya mümkün qədər müsəlləh süvari və piyada imdada gedirdi. Xülasə, çox zəhmət və məşəqqətdən sonra həmiyyətli və qeyrətli böyük türk qardaşlarımızın sayeyi-səadətlərində bu böyük bəladan xilas olduq.

Amma şimdi 3-4 aydır ki, Lahıcda və ətraf köylərində 3-4 növ müsri [yoluxucu] naxoşluq əmələ gəlib ki, iyirmi, otuz və elə vaxt olur 50 adam vəfat eyləyir. Təxminən demək olar ki, Lahıcda və ətrafında 5-6 min adam tələf olmuşdur. (Bu naxoşluqlar vəba, tif, möhriqə [qızdırma] və sair müsri mərəzlərdir.)

Şimdiyə qədər Lahıcda bir nəfər doktor, feldşer, dəvaxana [aptek] yoxdur. Bu biçarə fələkzədələr [bədbəxtlər] təbibsiz, dəvasız, əlacsız qalıb, üç gün, beş gün, on gün zəhmət çəkəndən sonra dünyaya vida eyləyirlər və bu halda baqi [geridə] qalanlar isə yüzdə səksən və yüzdə doxsan faizi yenə naxoşdur. Düşmənin yədi-zalimanəsindən [zülm eləyən əlindən] salamat qalıb, şimdi dəvasız, doktorsuz, təbibsiz qırılırız. Bu xüsusda möhtərəm Bakı qubernatorunun hüzuruna ərizə verib, Lahıca bir doktor və feldşer və dəvaxana göndərmələrini rica və təmənna [xahiş] etmişik. Cənab qubernatorun və Səhiyyə və Nafiə [Səhiyyə və Sosial Təminat] nazirlərinin diqqətlərini bu xüsusa cəlb etməklə, şu möhlik [öldürücü] girdabdan sahili-nicata [nicat sahilinə] çıxarmaqlarını acizanə təmənna edəriz.

Həbib Ələkbərzadə

XARİCİ XƏBƏRLƏR

Ümumi Qafqaziya pulları

Gürcistan Xariciyə naziri Azərbaycan və Ermənistan siyasi nümayəndələrinə müraciətlə sual etmişdir ki, məzkur [adıçəkilən] hökumətlər gürcü hökumətilə birlikdə ümumi Qafqaziya pulu (Tiflis pulu) buraxmağı davam etdirməyə razıdırlarmı?

Neft vaqonları

Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] əmri mövcibincə [əmrinə uyğun olaraq] təşrini-əvvəlin [oktyabrın] 24-ündə Tiflisdən Azərbaycan dəmiryollarına 50 ədəd neft vaqonları göndərilmişdir. Bu vaqonları hökumətimiz kirayə etmişdir.

Bolşeviklərin aclığı

Aclıq elan etmiş bolşeviklərə təşrini-əvvəlin [oktyabrın] 23-ündə elan edilmişdir ki, onlar Daxiliyyə nazirinin əmri mövcibincə [əmrinə uyğun olaraq] bolşevik hərəkatında iştirak etdiyindən naşi [etdiyinə görə], 4 aydan 7 aya kimi həbs edilmişlər. Bu qətnamə müttəhim edilənlərin birini qane etmişdir, başqaları isə azad edilənə kimi aclıq elan edəcəklərini bildirmişlər. Fəqət, bir nəfəri yoldaşlarının səlahdidi [münasib görməsi] ilə yemək qəbul etməyə məcbur olmuşdur. Bunun əhvalı pək fəna imiş.

Ermənistanda

İrəvandan verilən xəbərlərə görə, Ermənistanda vəba xəstəliyi azalmışdır. Çörəyin qiyməti ucuzlaşmışdır. Hal-hazırda çörəyi 3 rublədən 3 rublə 20 qəpiyə kimi satırlar. Əvvəllərdə isə 4 və yaxud 4 manat 50 qəpik idi. Ermənistan Hökuməti-cümhuriyyəsi bütün qaçqın əhalinin siyahısını tutmuşdur. Hökumət bir fabrika açmağı təhti-qərara almışdır [qərarlaşdırmışdır]. Fabrika binasına sərf olunmaqdan ötrü 6 milyon rublə təxsis etmişdir [ayırmışdır]. Rəvayətə görə, buradan çıxacaq qumaşın arşını təxminən 4 rublə 83 qəpiyə tamam olacaqdır. Fabrikada 1500 fəhlə işləyəcəkdir.

Kubanda

Kubandan Tiflisə gəlmiş bir zat, ora əhvalı barəsində belə məlumat vermişdir: Kavkask mövqifi [stansiyası] bolşeviklər əlindədir. Fəqət, Könüllü ordu başçılarının dediyinə görə, mövqifi yaxın zamanda işğal etməyə müvəffəq olacaqlar. Bir çox müharibələrdən sonra, Armavir şəhəri bolşeviklərin əllərində qalmışsa da, hal-hazırda təxliyə edirlər. Maykop könüllülər tərəfindən işğal edilmişdir. Yekaterinodarda rahatlıqdır.

Krımda

Gürcüstan Hökuməti xəbər almışdır ki, mühacirlərin Krım Cümhuriyyətinə daxil olmaları qadağan edilmişdir. İşbu qətnamə elan ediləcəkdir.

Krım Cümhuriyyətinin təsdiqi

Krım Hökuməti Berlindəki nümayəndəsindən xəbər almışdır ki, Krım Cümhuriyyətini Almaniya təsdiq etmişdir.

Etilaf dövlətlərinin dəniz tələfatları

Berlindən rəsmi surətdə xəbər verilir ki, təmmuz [iyul] ayı ərzində 550.000 ton[naj] ticarət vaporu təxrib edilmişdir. Müharibə başlanandan bu vaxtadək Etilaf dövlətlərinin 18.800.000 ton[naj] vaporu təxrib edilmişdir. Bundan 11.600.000 İngiltərənindir. Rəsmi surətdə elan edilənlərdən əlavə, təmmuz ayı zərfində 28.000 ton[naj] vapor güclü surətdə xəsarətdidə olmuşdur [zədələnmişdir]. Bunlar düşmən limanlarına aparılmışlardır.

- Sualtı müharibəsindən Etilaf hökumətlərinə dəyən zərər bir daha müdhişdir [dəhşətlidir]. Hamısından çox İngiltərə qeyb etmişdir. İngiltərənin qızğın çalışması, düşmən gəmilərinin, hətta bitərəf dövlətlərə məxsus gəmilərin tutulması belə itirdiyini təcdidə [bərpa etməyə] imkan verəmmədi. “N. R. K.” qəzetəsi “D. N.” və “D. K.” nam [adlı] ingilis qəzetələri hökuməti cəbhəyə qoşun göndərməkdə müttəhim edirlər. Bunların əqidəsincə kömür mədənləri və gəmiqayıran müəssisələr belə ciddi bir vaxtda boşluğa məruz qalacaqlardır. Hökumətin cəbhəyə qoşun göndərməsi ticarət seyrisəfininə [ticarət gəmilərinin hərəkətinə] zərbə vurmaqla, məmləkəti fəna bir halda buraxır. “D. T.” qəzetəsinin bəhri [donanma] müxbiri Argibald Qurd yazır: Bəhriyyə Nəzarəti və tərsanə itminanlarına [xatircəmliklərinə] baxmayaraq yenə bir çox vaporlarımız qərq olmuşdur: Sualtı müharibəsi barəsindəki işbu məlumat pək maraqlıdır. Düşmən donanmasından 1916 sənədə noyabr-fevral aylarında 238.000 brut ton, mart-aprel ayla-rında 423.000, may-iyun 219.500, iyul 103.000, avqust 309.347, sentyabr 254.000, oktyabr 395.500, noyabr 408.500, dekabr 415.000. 1917 sənədə: yanvarda 439.500, fevral 781.500, mart 885.000, aprel 109.100, may 869.000, iyun 1.016.000, iyul 811.000, avqust 808.800, sentyabr 672.000, oktyabr 674.000, noyabr 607.000, dekabr 702.000. 1918 sənədə: yanvar 632.000, fevral 680.000, mart 689.000, aprel 652.000, may 662.000, iyun 549.000.

Diş həkimi Melçarski

Torqovaya soqaqda Muxtarovun xanəsində nömrə 15. Dişlərə tədavi edir, doldurur, ağrısız ixrac edir. Gözəl altun və sairə dişlər emal edir. Xəstələri qəbul edir: sübh saat 9-2-yədək.

210 12-4

Mama M. Q. Şerman

Qəbul edir: mamalıq, ovmaq (masaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qulluq etmək işində də təcrübəsi vardır. Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində, 2-ci mərtəbə.

Diş müalicəxanası
S. M. İtkinin süni diş laboratoriyası

Dişlərin ağrısız çəkilməsi. Təzə üsulla farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan birə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Morskoy küçədə 37 nömrəli ev, telefon 06-25.

208 5-5

Arvad diş həkimi Z. A. Şexter xanım

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

215 25-5

Müsəlman diş təbibəsi Ayna xanım

Malakan bağının qarşısında Zeylidsonun kabinəsində hər gün xəstə qəbul və hər növ diş emal və tədavi [müalicə] edir. Zabitan və əfradın [zabitlərin və əsgərlərin] dişləri əhvən şəraitlə [münasib şərtlərlə] tədavi və emal edilir.

213 12-8

Arvad diş həkimi Moiseyeva-Levin

Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.

Dişlərə müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicəxanasının müdiri nəzarəti altında süni dişlər qayırılır.

Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.

216 25-5

Həkim S. L. Şklovskaya

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Morskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

209 12-5

Elan

Fransız “uşaq bağçasına” 2 yaşından 10 yaşına kimi çocuqlar tamam pansiyona qəbul edilib, rusca və fransızca təcrübə verilir.

Ünvan: Mariinski caddədə nömrə 18.

224

Müdirlər:
Ceyhun bəy Hacıbəyli
Şəfi bəy Rüstəmbəyli

TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

Hökumət qərardadı:
Ziraət Nəzarətinin əmrləri

“Abbasəli bəy Makinski”: qəzetdə səhvən “Abbasqulu bəy Makinski” kimi getmişdir.

Şücaət qılıncı ilə düşmənin qılıncını titrədən ərlərə

“Artıq nə namusu qalar, nə həyası qalar”: “həyası” yerinə qəzetdə “həyatı” getmişdir.

“29 təşrini-əvvəl 34”: Burada il, rumi tarixlə göstərilmişdir (1334-cü il). Miladi tarixlə 29 oktyabr 1918-ci ilə uyğundur.

Qəzetələrdən:
Türküstanda

Zaqafqaziya – Bəhri-Xəzər İttifaqı: Burada söhbət bolşeviklərə qarşı birgə mübarizə aparmaq məqsədi ilə qurulan Qafqaz-Xəzər İttifaqından gedir.

“Kooperasiya” cəmiyyətinə nəzarət

“Mavərayi-Xəzər müstəhlikini “Kooperasiya” cəmiyyəti”: Burada söhbət “Kooperatsiya” Xəzəryanı İstehlak Cəmiyyətləri İttifaqından [Прикаспийский Союз потребительских обществ "Кооперация"] gedir.

Öyün millət

“Yavərani-həzrəti-şəhriyari”: “Padşah həzrətlərinin yavərləri” mənasını verir. Osmanlı İmperiyasında hərbi ünvan idi.

“Sipehsaları-əzəm”: “əzəmətli Baş komandan”.

“Dövlətli”: Osmanlı İmperiyasında bəzi yüksəkçinli zabitlərə və dövlət məmurlarına müraciət formasıdır.

“Fəriq”: Osmanlı ordusunda hərbi rütbə. “Fəriqi-sani” (ikinci fəriq) “general-mayor” və “general-leytenant” rütbələrinə, “fəriqi-əvvəl” (birinci fəriq) isə “ordu generalı” rütbəsinə uyğun idi.

“Tutardı şişəyə hər dəm şərabi-nab tək qanın”: “Sənin qanını hər dəm, saf bir şərab kimi şüşəyə çəkərdi.” Burada klassik ədəbiyyatın “şərabi-nab”, “şişəyə tutmaq”, “dəm” kimi məşhur məzmunlarından istifadə edilmişdir. Bu misranın ən bəsit mənası belədir: “Hər an sənin qanını içərdi.”

“Öyün millət” şeiri üçün lüğət

əltaf: lütflər
övtan: vətənlər; ölkələr
əninü ahü əfqan: nalə, ah və fəryad
rəvaqi-ərş: ərşin (göyün ən uca mərtəbəsinin) qübbəsi, çardağı
nəsb etmək: asmaq; sancmaq
kövkəbi-bəxt: bəxt ulduzu
nəcmi-zahir: görünən, parlaq ulduz
nəcmi-taban: işıqlı, parlaq ulduz
liva: bayraq; qoşun bayrağı
zibi-duş etmək: bəzək (zinət) kimi çiyninə (boynuna) asmaq
mümtaz: seçkin, imtiyazlı

Yaslı bir xəbər

*“Ələlxüsus, mərhum arxadaşımız Kərbəlayi Cahangir Zeynalovun vəfat xəbərini...”: bu cümlədə anlaşılmazlıq var. Güman ki, mətnin bir hissəsi